# "Zəfər yolu"nun ilk qalibləri



**Noyabrın 19-da ümumi təhsil müəssisələrinin VIII-XI sinif şagirdləri arasında keçirilmiş "Zəfər yolu" inşa müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi baş tutub. Müsabiqə Təhsil Nazirliyinin təşkilatçılığı, Heydər Əliyev Fondu və Qarabağ Dirçəliş Fondunun tərəfdaşlığı ilə həyata keçirilib.**

## VIII-XI sinif şagirdləri arasında keçirilmiş inşa müsabiqəsinin qalibləri mükafatlandırılıb







### Gənc nəsildən əsas gözləntilər daha dərin, müasir bilik və bacarıqlara yiyələnmələridir

Baş nazirin müavini Əli Əhmədov əvvəlcə qazanılan Zəfər münasibətilə tədbir iştirakçılarını təbrik edib. Şanlı Zəfərin Azərbaycanın əsrlər boyu mövcud tarixinin ən parlaq səhifəsi olduğunu vurğulayan Əli Əhmədov bu şərəfli tarixin gələcək nəsillərə çatdırılmasında, qələbəmizin təbliğ və təşviqində görülən işlərin böyük məna daşıdığını qeyd edib. "Zəfər yolu" inşa müsabiqəsinin də bu baxımdan müstəsna roluna toxunan Əli Əhmədov təhsil sahəsinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışıb. Bildirib ki, bugünkü gənc nəsildən əsas gözləntilər daha dərin, müasir bilik və bacarıqlara yiyələnmələri, mükəmməl vərdişlərə sahib olmaları, bununla da Azərbaycanın inkişafı üçün töhfə verə biləcək, layiqli bir vətəndaş kimi yetişmələrindən ibarətdir.

### "İşğaldan azad edilən torpaqlarda əyani olaraq dərslər təşkil edilsin"

Təhsil naziri Emin Əmrullayev ölkə Prezidenti İlham Əliyevin uğurlu siyasəti və Müzəffər Ordumuzun şücaəti nəticəsində möhtəşəm zəfərin qazanılması ilə Azərbaycan təhsilində yeni bir səhifə açıldığını deyib. Respublika əhəmiyyətli yarışlardan biri olan "Zəfər yolu" inşa müsabiqəsini həmin şanlı səhifənin əksi sayan nazir böyük qələbənin böyük nəticələrindən danışıb. Xüsusən, bu qələbənin yeni nəslin vətənpərvərlik ruhunda tərbiyəsində müstəsna rola malik olduğunu vurğulayaraq bildirib ki, böyük zəfərin mahiyyəti təhsilin istiqamətini də dəyişib.

Emin Əmrullayev qeyd edib ki, təhsil sisteminin əsas məqsədlərindən biri şagirdlərdə təkcə bilik və bacarıqları deyil, həm də hər kəs üçün müqəddəs olan vahid dəyərlər formalaşdırmaqdır. Bu il tədris sisteminin məzmun və mahiyyətinin Zəfərə həsr olunduğunu bir daha diqqətə çatdıran nazir bu istiqamətdə Təhsil Nazirliyi tərəfindən görülən işlərdən danışıb. "Zəfər tarixi" dərsliyindən söz açan Emin Əmrullayev bildirib ki, bu dərsdənkənar məşğələlər Azərbaycanın təhsil məzmununda özünəməxsus yer tutacaq: "Əvvəlki illərdə tədris olunan "Qarabağ tarixi"-fakültətiv məşğələsi "Zəfər tarixi" olaraq bu tədris ilindən başlayaraq keçiləcək. Növbəti həftələrdə dərsliklər məktəblərə paylanacaq. İnandığım ondan ibarətdir ki, bu dərs Azərbaycanın təhsil məzmununda özünəməxsus yer tutacaq".

Nazir hesab edir ki, "Zəfər tarixi", sadəcə sinif otaqlarında və yalnız dərsliklərdən keçilməyəcək: "Bu, həm təhsil, həm də qazanılmış zəfər fonunda olan bir məqamdır. Təhsil Nazirliyinin mövqeyi budur ki, zəfər tarixi həm dərs vəsaitindən sinifdə keçilsin, həm də çox qısa müddətdə yaradılan Hərbi qənimətlər parkında, işğaldan azad edilən torpaqlarda əyani olaraq dərslər təşkil edilsin. Məktəb rəhbərləri və Təhsil Nazirliyi olaraq hamımız prosesin reallaşması üçün mümkün olan çərçivədə zəruri dəstəyi göstərməyə çalışacağıq. Şəxsi qənaətim ondan ibarətdir ki, mövzuya uyğun yerlərdə təlimlərin təşkili tədrisin keyfiyyəti baxımından daha uyğundur, nəinki abstrakt formatda keçirilməsi".

E.Əmrullayev "Zəfər yolu" inşa müsabiqəsinin şagirdlərin istər yazı bacarıqlarının təkmilləşdirilməsində, istərsə də, araşdırma və təhlil bacarıqlarının inkişafında əhəmiyyətli rol oynayacağına inandığını vurğulayıb.

### Vurulan ziyan aradan qaldırılır

Heydər Əliyev Fondunun şöbə müdiri Elvin Aslanov işğal dövründə Azərbaycan ərazilərində həyata keçirilən ekoloji terrora toxunaraq, təbiətə vurulan ziyanın aradan qaldırılması istiqamətində həmin ərazilərdə təmsil etdiyi qurumun gördüyü işlərdən danışıb: "Torpaqlarımızın işğal altında olduğu dövrdə mənfur düşmən regionun təbiətinə, biomüxtəlifliyə və bütövlükdə ekosistemə ziyan vurub, ekoloji terror törədib. Bu səbəbdən Zəfər Günündə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən silsilə tədbirlər çərçivəsində Regional İnkişaf İctimai Birliyinin könüllüləri Topxana meşəsində ağacəkmə kampaniyası keçiriblər. Məlum olduğu kimi, Topxana bizim üçün sadəcə meşə, qoruq deyil, xalqımızın tarixi, milli irsi, özünümüdafiə simvolu və qürur mənbəyidir. Ağacəkmə aksiyasında 3 hektar ərazidə ağac əkilib, palıd toxumu səpilib".

E.Aslanov Prezident İlham Əliyevin çağırışı ilə Zəfər Günü münasibətilə 44 gün ərzində işğaldan azad olunan ərazilərdə həyata keçirdikləri ağacəkmə kampaniyası barədə də məlumat verib.

O, Heydər Əliyev Fondunun da təşkilatçılarından olduğu müsabiqənin şagirdlərdə məlumatlılıq səviyyəsinin artırılması, onlarda vətənpərvərlik hisslərinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətini qeyd edib.

### Yaşadıqlarımı yazmağı öyrəndim...

Daha sonra I yerin qaliblərindən olan, İsmayıllı şəhəri 5 nömrəli tam orta məktəbin VIII sinif şagirdi, II Qarabağ müharibəsinin şəhidlərindən olan mayor Sübhi Mürsəliyevin qızı Aişə Mürsəliyeva bu müsabiqədə iştirakın ona qürurlu anlar yaşatdığından danışıb: "Böyük həvəslə qatıldığım müsabiqənin qaliblərindən olduğum üçün qürur hissi keçirirəm. Yazdığım inşada şahidi olduğum tarixin həm ölkəmə, həm də mənə öyrətdiklərindən yazdım. Müsabiqədə iştirak mənə çox şey öyrətdi. Yaşadığımız o tarixə yenidən baxmağı, yaxından görünməyən həqiqətləri uzaqdan daha yaxşı anlamağı, fikirləri ümumiləşdirməyi, daha dərindən düşünməyi, hissləri ifadə etməyi öyrəndim".

Cəlilabad rayonu Sabirabad kənd 2 nömrəli tam orta məktəbin tarix müəllimi, Vətən müharibəsinin könüllü iştirakçısı Elçin Ələkbərov müharibədə iştirakından və qələbəyə inamından söz açıb: "II Qarabağ müharibəsinin ilk günlərindən könüllü olaraq Ordu sıralarına qatıldım. Tam cəsarətimlə deyə bilərəm ki, müharibənin hər saatında, hər dəqiqəsində, hətta ən çətin dəhşətli anlarda belə qələbə çalacağımıza inanmışam. Qələbəmizə olan bu inam bizi ancaq irəli getməyə sövq edib".

Müharibə iştirakçısı müəllim fikirlərinə əlavə edərək dedi: "Döyüşlərdə iştirak məni mənəvi cəhətdən də dəyişdirdi. Müharibə şəraitində sanki insan özünü yenidən kəşf edir. Ancaq qəribədir ki, cəbhədən qayıdanda şagirdlərimin də dəyişdiyinin şahidi oldum. Bu qısa müddətdə onlar sanki böyüyüb həddi-buluğa çatmışdılar. Ötən il pandemiya səbəbindən məktəblərə gələ bilməyən şagirdlərimiz çox vacib olan başqa bir dərs aldılar: vətənpərvərlik və vətəndaşlıq dərsi. Həmin düşüncələrlə müsabiqəyə qatılan, zəfər yolumuz barədə fikirlərini kövrək hisslərlə qələmə alan, vətəni qoruyanları qiymətləndirən bütün şagirdlərimizə təşəkkürümü bildirirəm".

Sonda müsabiqənin nəticələrinə əsasən I, II və III yerlərə layiq görülmüş şagirdlərə hədiyyələr təqdim edilib.

**Ruhiyyə DAŞSALAHLI**